**Qubadlının işğalından 27 il ötür**

***Xalqların öz müqəddəratını təyinetmə hüququ bəhanəsi ilə ulu yurd yerlərimizi, tarixi Azərbaycan torpağı olan Dağlıq Qarabağı, ona bitişik yeddi rayonumuzu da işğal etmiş ermənilər sülh danışıqlarını uzatmaqla bu ərazilərə de-yure sahiblənmək niyyətindədirlər. Amma onlar unudurlar ki, bu, tamamilə mümkünsüz bir xülyadır və gec-tez torpaqlarımız mənfur düşməndən tamamilə təmizlənəcək. Artıq bütün dünya Ermənistanı işğalçı dövlət, erməniləri isə nahaq iddiaları ilə haqqı tapdalayan nankor bir toplum kimi tanıyır. Sözün birbaşa mənasında haramçılıqla dünya xəritəsinə düşən, dövlət siyasətinin əsasını işğalçılıq təşkil edən bu toplum çox çəkməz ki, layiqli cəzasını alar, törətdiyi çoxsaylı terror, görünməmiş qətl və vandalizm aktlarına görə haqq divanına çəkilər.***

# Ulu Zəngəzurun qapısı dağlar...



Erməni vəhşiliklərindən əziyyət çəkən, işğala məruz qalan rayonlarımızdan biri də Dağlıq Qarabağ ərazisinə heç bir dəxli olmayan Qubadlıdır. Artıq 27 ildir ki, Nəbi yurdu, onun dağı-daşı tapdaq altında inləyir. Qubadlı camaatı isə işğal səbəbi ilə məcburi köçkün həyatı yaşayır. Amma bu gün respublikamızın 41 müxtəlif şəhər və rayonunda məskunlaşan, idarə, müəssisə, təşkilatları əsasən Bakı və Sumqayıt şəhərlərində, eləcə də Abşeron rayonunun ərazisində yerləşən Qubadlının sakinləri haqqın, ədalətin, nəhayət ki, zəfər çalacağına tükənməz inam bəsləyir. Elə onları yaşadan da bu böyük inamdır.

Qədim tarixi – etnoqrafik bölgələrimizdən olan Qubadlının ərazisində xeyli sayda təbii və süni mağaraların olması burada insanların hələ Paleolit dövründən məskunlaşdığını təsdiq edir. Ümumiyyətlə, burada Son Tunc –İlk Dəmir dövrünə aid abidələr: “Xırman yeri” adlı yaşayış məskəni , Koroğlu qalası, Qalaça, Maltəpəsi qeydə alınmışdır. Tarixi qaynaqlarda Qubadlı rayonunun Həkəri kəndinin adına erkən orta əsr mənbələrində rast gəlinir.

XIX əsrin 80-ci illərinin ortalarında Zəngəzur qəzasında fəaliyyət göstərən 4 dünyəvi məktəbdən biri 1882-ci ildə Qubadlıda açılmışdı. Bu məktəb el arasında çox vaxt Həsən bəyin məktəbi adlandırılırdı. Qubadlı XX əsrin əvvəllərində bölgənin mədəni həyatında daha bir yeni, mütərəqqi addımın atıldığı yer olub: bölgənin ilk dünyəvi qız məktəblərindən biri məhz burada fəaliyyətə başlayıb. Şanlı bölgə hələ o zaman Azərbaycan elminə ictimai fikrin dahi şəxsiyyətlərini bəxş edib. Bunların arasında filosof Hacı Mirhəmzə Əfəndi Seyid Nigarini, tanınmış tarixçi Mirmehdi Xəzanini göstərmək olar.

Qubadlı çarizmə qarşı xalq azadlıq hərəkatının əsas mərkəzlərindən biri olmuşdur. Qaçaq Nəbinin başçılığı ilə qaçaqlar uzun müddət ərzində hökumətə, haqsızlığa və zülmə qarşı mübarizə aparıblar. İyirminci əsrdə Qubadlı dəfələrlə erməni işğalçı qüvvələrinin hücumlarına məruz qalıb (1905-1906, 1918-1920-ci illər). 1905-ci ildə çar Rusiyasında baş qaldıran inqilabi hərəkat və kütləvi iğtişaşlar ermənilərə fürsət vermişdi ki, öz çirkin niyyətlərini Zəngəzurda (Qubadlı bölgəsində) də həyata keçirsinlər. Arxiv sənədləri göstərir ki, “Hnçaq” və “Daşnaksutyun” kimi erməni terror təşkilatları Zəngəzurun azsaylı erməni əhalisi arasında milli zəmində qarşıdurma yaratmaq istiqamətində iş aparıblar. 1895-1896-cı illərdə Şərqi Anadoluda çar Rusiyası və Avropa dövlətlərinin təhriki ilə baş qaldıran erməni üsyanları yatırıldıqdan sonra həmin iğtişaşların təşkilatçılarının və icraçılarının əksəriyyəti Cənubi Qafqaza, əsasən də İrəvan və Yelizavetpol (Gəncə) quberniyalarında yerləşmişdilər. Yenə də çoxluq bizə aid olub: 1905-1906-cı illər qırğınları ərəfəsində Zəngəzur qəzasında mövcud olmuş 406 yaşayış məntəqəsindən 314-də azərbaycanlılar yaşayıblar. Torpaqların böyük bir qismi azərbaycanlı mülkədarların və kəndlilərin əlində idi. Erməni təşkilatları isə bütün bu mülkləri ələ keçirmək üçün dəridən-qabıqdan çıxırdılar.

Sovet hökumətinin ilk dövrlərində də Zəngəzurun (Qubadlı bölgəsinin) başının üstündən qara buludlar əskik olmayıb. Bütövlükdə Zəngəzurla birlikdə Qubadlının da kəndləri yandırılıb, dinc əhaliyə divan tutulub. Bununla belə, bütün məhrumiyyətlərə baxmayaraq hər dəfə işğalçı erməni quldurları torpaqlarımızdan qovulub, yaşayış məntəqələri və müvafiq infrastruktur bərpa edilib. 30 avqust 1930-cu il tarixdə Azərbaycan Xalq Komissarları Sovetinin və Mərkəzi İcraiyyə Komitəsinin birgə qərarı ilə Azərbaycanda rayonlaşma aparılıb və beləliklə Qubadlı rayonu da təsis edilib. Təəssüf ki, bundan düz 63 il sonra, 1993-cü il avqustun 31-də erməni separatçıları tərəfindən DQMV, həmçinin vilayətin tərkibində olmayan digər altı rayonla bərabər, Qubadlı rayonu da işğala məruz qalıb. Elə bu faktın özü Ermənistanın dövlət siyasətinin işğalçı mahiyyətini aydın göstərir.

Tarixi mənbələrin təhlili nəticəsində “Kobatlı” - “Qubadlı” yer adının bəydili nəsli ilə əlaqələndirilməsi bu torpaqların bilavasitə türk yurdu olduğunu bir daha təsdiqləyir, çünki Bəydili Oğuz xanın Yıldız xandan olan nəvəsi idi. Ermənilərin dağıtdığı Qubadlının rayon mərkəzində maraqlı eksponatlar toplanmış tarix-diyarşünaslıq muzeyi fəaliyyət göstərirdi. Rayonda 70-80-ci illərdə bir sıra abidələr inşa olunmuşdu. Bunlara "Fərhad və Şirin" bulağı, "Ceyran" bulağı, xalq qəhrəmanları Qaçaq Nəbinin və Həcərin abidələri, 1941-45-ci illər müharibəsində, habelə 20 Yanvar faciəsi zamanı şəhid olanların xatirəsinə həsr olunan abidə kompleksləri aiddir. 1988-ci ildə Qubadlıya həm Ermənistan, həm də Dağlıq Qarabağ tərəfdən təcavüzkar hücumların başlanması ilə dinc əhaliyə qarşı terror törədilməsi ilə bərabər, tarixi və mədəni abidələrin dağıdılması sistemli şəkildə davam etdirilmişdir.

Müharibə nəticəsində rayondan 40 nəfəri qadın, 4 nəfəri uşaq, 53 nəfəri isə 60 yaşdan yuxarı qoca olmaqla 238 nəfər şəhid olub. Onlardan 8 nəfəri ölümündən sonra Azərbaycan Respublikasının Milli Qəhrəmanı adına layiq görülüb. Milli Qəhrəman adını şərəflə daşıyan Şükür Həmidov və Fəxrəddin Cəbrayılov hazırda sıralarımızdadırlar.

Qubadlı şəhidlərindən 117 nəfəri mülki əhalidəndir. 204 nəfər hərbçi, 69 nəfər mülki şəxs əlil olub, onlardan 12 nəfəri uşaqdır. 1 şəhər, 93 kənd, 6988 yaşayış evi, 8 sənaye və 1080 kənd təsərrüfatı obyekti, 32 rabitə, 86 səhiyyə, 180 mədəniyyət, 74 təhsil, 125 ticarət, 96 ictimai iaşə, 25 məişət xidməti, 48 kənd təsərrüfatı, 6 sənaye müəssisələri, 650 km avtomobil yolları, 9 körpü, 2 su anbarı, 150 kilometr magistral su xətləri, 4830 km elektrik xətləri, 165 km magistral qaz boru xətti, 146 idarə, müəssisə binaları, 18 dəyirman, 4 su nasos stansiyası, 120 ədəd elektrik yarımstansiyası və transformator dağıdılıb, 13365 hektar meşə sahəsi işğal altında qalıb.

Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın qayğısı nəticəsində rayon əhalisinin sosial problemləri mütəmadi olaraq həllini tapmışdır. Məcburi köçkünlərin yeni mənzillərlə təmin olunması həmişə diqqət mərkəzində olub. Rayon sakinlərinin məskunlaşma yerlərində yaşayış şəraitinin yaxşılaşdırılması istiqamətində işlər sürətlə davam etdirilir. Məlum olduğu kimi, Abşeron rayonunun Sumqayıt stansiyası adlanan ərazisində və Sumqayıt şəhərindəki 12-ci mikrorayon ərazisində məcburi köçkünlər üçün inşa edilmiş şəhərciklərdə qaçqın ailələrinin yeni mənzillərə köçürülməsi işi tam başa çatdırılmışdır. Min beş və min bir ailəyə hesablanan qəsəbələrin əsas kontingenti Qubadlıdan olan məcburi köçkünlərdir. Bununla yanaşı, Qaradağ rayonundakı “Ümid” qəsəbəsinə 19 ailə, Şirvan şəhərindəki şəhərciyə 19 ailə, “Qobu-Park” yaşayış kompleksinə 22 ailə, Pirallahı rayonunda salınmış şəhərciyə 9 ailə, Kürdəxanı qəsəbəsində salınmış yaşayış kompleksinə 5 ailə və “Qobu- Park” yaşayış kompleksinə 15 ailə köçürülmüşdür. Hazırda Sumqayıt stansiyasi ərazisində 3 məktəb-- Hal, Dəmirçilər və 4 saylı Qubadlı şəhər məktəbləri, 1 saylı körpələr evi və uşaq bağçası, rabitə qovşağının poçt agentliyi, Mahrızlı kənd həkim məntəqəsi fəaliyyət göstərir. Bu il rayon Mərkəzi Xəstəxanasının yanında Gigiyena və Epidemiologiya Mərkəzinin yeni binası tikilib istifadəyə verilmişdir. Rayonda 20 min 800 nəfər əmək qabiliyyətli əhali var. Ümumiyyətlə, son illərdə rayon üzrə 4 min 203 yeni iş yeri açılmış, 1612 sahibkarlıq subyekti yaradılmışdır.

Hər bir Qudadlı övladı yurdun tarixi ilə fəxr etdiyi kimi, onun şöhrətini artırmaq üçün əlindən gələni edir. Əslən Qubadlıdan olan, Bakıda doğulan və beş yaşında ikən ailəlikcə Sumqayıta köçən, əli qələm tutandan bu şəhəri vəsf edən, ermənilərin 1988-ci ildə Sumqayıtda törətdiyi vəhşi aksiyalar barədə kitablar yazan, sənədli kinofilmlərin ssenari müəllifi olan Əməkdar jurnalist Eyruz Məmmədov itirilmiş yurd yerləri haqqında yazdığı maraqlı əsərləri ilə də tanınır. Onun qədim Azərbaycan torpağı Zəngəzurun qapısı sayılan Qubadlıya həsr etdiyi iri həcmli, sanballı "Bir kəndin camaatı" tarixi-etnoqrafik romanı erməni vəhşiliklərinin ifşası, ulu yurd yerlərimizdən didərgin düşmüş soydaşlarımızın tale sınaqları barədə dəyərli bir əsərdir. Mənfur düşmən, nankor qonşu olan ermənilərin dövlət siyasətində işğalçılığın aparıcı xətt olması bu əsərdə konkret və tutarlı faktlarla sübuta yetirilir. Ünlü yazıçı-publisist ən böyük arzusunun işğaldan azad ediləcək torpaqlarımız, Qubadlıya qayıdış haqqında böyük bir əsər yazmaq olduğunu söyləyir.

... Nəbi yurdunun mərd əhalisi Azərbaycanın inkişafında, ictimai-siyasi həyatda, ordumuzun daha da qüdrətlənməsində yaxından iştirak edir, hər an Vətən naminə canından keçməyə belə hazır olmaq əzmini sərgiləyir. Onlar tezliklə doğma yurda qayıdacaqlarına inanırlar. Azərbaycan Prezidenti İlham Əliyevin apardığı müdrik daxili və xarici siyasət bunun ən böyük zəmanətidir. Məlum beynəlxalq dairələrin nala-mıxa döyməsinə, işğalçıları silahlandırıb onları “qızışdıran” bəzi region ölkələrinin ikili siyasətinə baxmayaraq, böyük qələbəyə olan inam sarsılmazdır.

***Əli NƏCƏFXANLI,***
***“Xalq qəzeti”***